Farizə Nəbiyeva, Aygün Qasımova,
Yeganə Məmmədəliyeva, Həbib Kərimov,
Süleyman Kərimov, Könül Doxolova

Xüsusi məktəblərin
3-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# Azərbaycan dili

fənni üzrə dərsliyin
## METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi chashioglu@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# TƏQVİM TEMATİK PLANLAŞDIRMA

## Oxu-I hissə

Azərbaycan dili (III sinif) SİM olan uşaqlar üçün Proqram.
Həftədə 5 saat. Cəmi 170 saat. ( I yarımillik 80 saat)

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 1 | A, N, Ə, T | 1 s | 6-7 |
| 2 | L, M, İ, B | 1 s | 8-9 |
| 3 | R, I, D, Y | 1 s | 10-11 |
| 4 | O, S, U, K | 1 s | 12-13 |
| 5 | P, Ş, E, V | 1 s | 14-15 |
| 6 | Z, Ü, Y | 1 s | 16-17 |
| 7 | Q, X, C | 1 s | 18-19 |
| 8 | Ç, H, F, J | 1 s | 20-21 |
| 9 | İnsan adları | 1 s | 22 |
| 10 | Heyvan adları | 1 s | 23 |
| 11 | Ölkə, şəhər adları | 1 s | 24 |
| 12 | Nöqtə | 1 s | 25 |
| 13 | Vergül | 1 s | 26 |
| 14 | Sual | 1 s | 27 |
| 15 | Nida | 1 s | 28 |
| 16 | K-hərfi | 1 s | 29 |
| 17 | Səs, hərf | 1 s | 30 |
| 18 | Söz, cümlə | 1 s | 31 |
| 19 | Əlifba (m) | 2 s | 32-33 |
| 20 | Əlifba (ş) | 2 s | 34-35 |
| 21 | Şəkilli kitab (m) | 2 s | 36-37 |
| 22 | Bulaq (m) | 2 s | 38-39 |
| 23 | Göy qurşağı | 2 s | 40-41 |
| 24 | Vətən torpağı (ş) | 2 s | 42-43 |
| 25 | Təkrar | 1 s | 44-45 |
| 26 | Təmizlik (m) | 2 s | 46-47 |
| 27 | Payız (m) | 1 s | 48-49 |
| 28 | Payız (ş) | 2s | 50-51 |
| 29 | Fənər (m) | 2 s | 52-53 |

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 30 | Quşları incitməyək (m) | 2 s | 54-55 |
| 31 | Həkim məsləhəti (m) | 2 s | 56-57 |
| 32 | Təhlükəsizlik (m) | 2 s | 58-59 |
| 33 | Külək (m) | 2 s | 60-61 |
| 34 | Ən böyük arzu (m) | 2 s | 62-63 |
| 35 | Təkrar | 1 s | 64-65 |
| 36 | Qışda (m) | 2 s | 66-67 |
| 37 | Qışda (ş) | 2 s | 68-69 |
| 38 | Çoban (m) | 2 s | 70-71 |
| 39 | Çayçı (m) | 2 s | 72-73 |
| 40 | Tala (m) | 2 s | 74-75 |
| 41 | Arıçı (m) | 2 s | 76-77 |
| 42 | Təkrar | 1 s | 78-79 |
| 43 | Hərifli köynək (m) | 2 s | 80-81 |
| 44 | Kəpənək (m) | 2 s | 82-83 |
| 45 | Pambıq (m) | 2 s | 84-85 |
| 46 | Qatar (ş) | 2 s | 86-87 |
| 47 | Dovşan (ş) | 2 s | 88-89 |
| 48 | Meyvələr (m) | 2 s | 90-91 |
| 49 | İdmançı (m) | 2 s | 92-93 |
| 50 | Təkrar | 1 s | 94-95 |
| 51 | Zooparkda (m) | 2 s | 96-97 |
| 52 | Qara qızıl (m) | 2 s | 98-99 |
| 53 | Qonaqlıq (ş) | 2 s | 100-101 |
| 54 | Təkrar | 1 s | 102-103 |

# Oxu-II hissə

Azərbaycan dili (III sinif) SİM olan uşaqlar üçün Proqram.
Həftədə 5 saat. Cəmi 170 saat. ( II yarımillik 90 saat)

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 1 | Dəcəl çəpiş (m) | 2 s | 6-7 |
| 2 | Tənbəllər (m) | 2 s | 8-9 |
| 3 | Arılar (m) | 2 s | 10-11 |
| 4 | Məktəbə get, dərs oxu (ş) | 2 s | 12-13 |
| 5 | Təkrar | 1 s | 14-15 |
| 6 | Saatı oyatma (m) | 2 s | 16-17 |
| 7 | Analar (ş) | 2 s | 18-19 |
| 8 | İşıldaböcək (m) | 2 s | 20-21 |
| 9 | Yazı dərsində (m) | 2 s | 22-23 |
| 10 | Təkrar | 1 s | 24-25 |
| 11 | Yazda (m) | 2 s | 26-27 |
| 12 | Ağacdələn (m) | 2 s | 28-29 |
| 13 | Lalə və Leyla (m) | 2 s | 30-31 |
| 14 | Nə üçün? (ş) | 2 s | 32-33 |
| 15 | Təkrar | 1 s | 34-35 |
| 16 | Çörək (m) | 1 s | 36-37 |
| 17 | Mənim gücüm (m) | 2 s | 38-39 |
| 18 | Tapmacalar (ş) | 2 s | 40-41 |
| 19 | Aprel (ş) | 2 s | 42-43 |
| 20 | Təkrar | 1 s | 44-45 |
| 21 | Özün həll et (m) | 2 s | 46-47 |
| 22 | Ağaclar (m) | 2 s | 48-49 |
| 23 | Gəlin dost olaq (m) | 2 s | 50-51 |
| 24 | Zəhmətin barı (ş) | 2 s | 52-53 |
| 25 | Təkrar | 1 s | 54-55 |
| 26 | Qazlar (m) | 2 s | 56-57 |
| 27 | Hamıdan gözəl | 2 s | 58-59 |

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 28 | Böyüklərə hörmət (ş) | 2 s | 60-61 |
| 29 | Təkrar | 1 s | 62-63 |
| 30 | Atalar sözləri (m) | 2 s | 64-65 |
| 31 | Papaq (m) | 2 s | 66-67 |
| 32 | Bağban babam (ş) | 2 s | 68-69 |
| 33 | Təkrar | 1 s | 70-71 |
| 34 | Çəyirdək (m) | 2 s | 72-73 |
| 35 | Lovğa dovşan (m) | 2 s | 74-75 |
| 36 | Bənövşə (ş) | 2 s | 76-77 |
| 37 | Təkrar | 1 s | 78-79 |
| 38 | Nəzakətli sözlər (m) | 2 s | 80-81 |
| 39 | Qohumlar (m) | 2 s | 82-83 |
| 40 | Sevirəm yayı mən (ş) | 2 s | 84-85 |
| 41 | Təkrar | 1 s | 86-87 |
| 42 | Yayda (m) | 2 s | 88-89 |
| 43 | Uşaqlar bayramı (ş) | 2 s | 90-91 |
| 44 | Təkrar | 13 s | 92-103 |

## Yazı-I hissə

Azərbaycan dili (III sinif) SİM olan uşaqlar üçün Proqram.
Həftədə 4 saat. Cəmi 135 saat. (I yarımillik 62 saat)

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 1 | A,N | 1 s | 6 |
| 2 | Ə, T | 1 s | 7 |
| 3 | L, M | 1 s | 8 |
| 4 | İ, B | 1 s | 9 |
| 5 | R, S | 1 s | 10 |
| 6 | D, Y | 1 s | 11 |
| 7 | O, S | 1 s | 12 |
| 8 | U, K | 1 s | 13 |
| 9 | P, Ş | 1 s | 14 |
| 10 | E,V | 1 s | 15 |
| 11 | Z, Ü | 1 s | 16 |
| 12 | Ö, G | 1 s | 17 |
| 13 | Q, X | 1 s | 18 |
| 14 | Ğ, C | 1 s | 19 |
| 15 | Ç, H | 1 s | 20 |
| 16 | F, Z | 1 s | 21 |
| 17 | İnsan adları | 1 s | 22 |
| 18 | Heyvan adları | 1 s | 23 |
| 19 | Ölkə, şəhər | 1 s | 24 |
| 20 | Nöqtə | 1 s | 25 |
| 21 | Vergül | 1 s | 26 |
| 22 | Sual | 1 s | 27 |
| 23 | Nida | 1 s | 28 |
| 24 | K hərfinin tələffüzü | 1 s | 29 |
| 25 | Səs, vergül, hərf | 1 s | 30 |
| 26 | Söz, cümlə | 1 s | 31 |
| 27 | Əlifba | 1 s | 32-33 |
| 28 | Əlifba (ş) | 1 s | 34-35 |
| 29 | Şəkilli kitab | 1 s | 36-37 |
| 30 | Bulaq | 1 s | 38-39 |

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 31 | Göy qurşağı | 1 s | 40-41 |
| 32 | Vətən torpağı (ş) | 1 s | 42-43 |
| 33 | Təkrar | 1 s | 44-45 |
| 34 | Təmizlik | 1 s | 46-47 |
| 35 | Payız | 1 s | 48-49 |
| 36 | Payız (ş) | 1 s | 50-51 |
| 37 | Fənər | 1 s | 52-53 |
| 38 | Quşları incitməyin | 1 s | 54-55 |
| 39 | Həkim məsləhəti | 1 s | 56-57 |
| 40 | Təhlükəsizlik | 1 s | 58-59 |
| 41 | Külək | 1 s | 60-61 |
| 42 | Ən böyük arzu | 1 s | 62-63 |
| 43 | Təkrar | 1 s | 64-65 |
| 44 | Qışda | 1 s | 66-67 |
| 45 | Qışda (ş) | 1 s | 68-69 |
| 46 | Çoban | 1 s | 70-71 |
| 47 | Çayçı | 1 s | 72-73 |
| 48 | Tala | 1 s | 74-75 |
| 49 | Arıçı | 1 s | 76-77 |
| 50 | Təkrar | 1 s | 78-79 |
| 51 | Hərfli köynək | 1 s | 80-81 |
| 52 | Kəpənək | 1 s | 82-83 |
| 53 | Pambıq | 1 s | 84-85 |
| 54 | Qatar (ş) | 1 s | 86-87 |
| 55 | Dovşan (ş) | 1 s | 88-89 |
| 56 | Meyvələr | 1s | 90-91 |
| 57 | İdmançı | 1 s | 92-93 |
| 58 | Təkrar | 1 s | 94-95 |
| 59 | Zooparkda | 1 s | 96-97 |
| 60 | Qara qızıl | 1 s | 98-99 |
| 61 | Qonaqlıq | 1 s | 100-101 |
| 62 | Təkrar | 1 s | 102-103 |

# Yazı-II hissə

Azərbaycan dili (III sinif) SİM olan uşaqlar üçün Proqram.
Həftədə 4 saat. Cəmi 135 saat. (I yarımillik 73 saat)

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 1 | Dəcəl çapiş | 2 s | 6-7 |
| 2 | Tənbəllər | 2 s | 8-9 |
| 3 | Arılar | 2 s | 10-11 |
| 4 | Məktəbə get, dərs oxu (ş) | 1 s | 12-13 |
| 5 | Təkrar | 1 s | 14-15 |
| 6 | Saatı oyatma | 2 s | 16-17 |
| 7 | Analar (ş) | 1 s | 18-19 |
| 8 | İşıldaböcək | 2 s | 20-21 |
| 9 | Yazı dərsində | 2 s | 22-23 |
| 10 | Təkrar | 1 s | 24-25 |
| 11 | Yazda | 2 s | 26-27 |
| 12 | Ağacdələn | 2 s | 28-29 |
| 13 | Lalə və Leyla | 2 s | 30-31 |
| 14 | Nə üçün? (ş) | 1 s | 32-33 |
| 15 | Təkrar | 1 s | 34-35 |
| 16 | Çörək | 2 s | 36-37 |
| 17 | Mənim gücüm | 2 s | 38-39 |
| 18 | Tapmacalar (ş) | 2 s | 40-41 |
| 19 | Aprel (ş) | 1 s | 42-43 |
| 20 | Təkrar | 1 s | 44-45 |
| 21 | Özün həll et | 2 s | 46-47 |
| 22 | Ağaclar | 2 s | 48-49 |
| 23 | Gəlin dost olaq | 2 s | 50-51 |
| 24 | Zəhmətin barı (ş) | 1 s | 52-53 |
| 25 | Təkrar | 1 s | 54-55 |
| 26 | Qazlar (m) | 2 s | 56-57 |
| 27 | Hamıdan gözəl | 2 s | 58-59 |

| | Mövzu | saat | səhifə |
|---|---|---|---|
| 28 | Böyüklərə hörmət (ş) | 1 s | 60-61 |
| 29 | Təkrar | 1 s | 62-63 |
| 30 | Atalar sözləri | 2 s | 64-65 |
| 31 | Papaq | 2 s | 66-67 |
| 32 | Bağban babam (ş) | 2 s | 68-69 |
| 33 | Təkrar | 1 s | 70-71 |
| 34 | Çəyirdək | 2 s | 72-73 |
| 35 | Lovğa dovşan | 2 s | 74-75 |
| 36 | Bənövşə (ş) | 1 s | 76-77 |
| 37 | Təkrar | 1 s | 78-79 |
| 38 | Nəzakətli sözlər | 2 s | 80-81 |
| 39 | Qohumlar | 2 s | 82-83 |
| 40 | Sevirəm yayı mən (ş) | 2 s | 84-85 |
| 41 | Təkrar | 1 s | 86-87 |
| 42 | Yayda | 2 s | 88-89 |
| 43 | Uşaqlar bayramı (ş) | 1 s | 90-91 |
| 44 | Təkrar | 16 s | 92-102 |

# MÜNDƏRİCAT

Əlifba........................................8
Əlifba (ş) ....................................9
Şəkilli kitab................................10
Bulaq...........................................11
Göy qurşağı................................12
Vətən torpağı...............................13
Təmizlik......................................14
Payız...........................................15
Payız (ş) .....................................16
Fənər...........................................18
Quşları incitməyin........................19
Həkim məsləhəti...........................20
Təhlükəsizlik...............................21
Külək...........................................22
Ən böyük arzu..............................23
Qışda...........................................24
Qışda (ş)......................................25
Çoban..........................................26
Çayçı...........................................27
Tala.............................................28
Arıçı............................................29
Hərfli köynək...............................30
Kəpənək......................................31
Pambıq........................................32
Qatar...........................................33
Dovşan.........................................34
Meyvələr......................................35
İdman...........................................36
Zooparkda....................................37
Qara qızıl.....................................38
Qonaqlıq......................................39
Dəcəl çəpiş..................................41
Tənbəllər......................................41
Arılar...........................................42
Məktəbə get, dərs oxu...................43
Saatı oyatma.................................44
Analar..........................................46
İşıldaböcək..................................47
Yazı dərsində...............................48
Yazda...........................................49
Ağacdələn....................................50
Lalə və Leyla................................51
Nə üçün?......................................52
Çörək...........................................53
Mənim gücüm...............................54
Tapmacalar...................................55
Aprel............................................56
Özün həll et..................................57
Ağaclar........................................58
Gəlin dost olaq.............................59
Zəhmətin barı...............................66
Qazlar..........................................60
Hamıdan gözəl..............................61
Böyüklərə hörmət..........................62
Atalar sözləri................................63
Papaq...........................................64
Bağban babam..............................65
Çəyirdək.......................................65
Lovğa dovşan...............................66
Bənövşə.......................................67
Nəzakətli sözlər............................68
Qohumlar.....................................69
Sevirəm yayı mən.........................69
Yayda...........................................70
Uşaqlar bayramı...........................71

# GİRİŞ

*Təqdim edilmiş dərslik komplekti üç kitabdan: dərslik, metodik vəsait və iş dəftərindən ibarətdir. Tədris ili üçün proqram materialı həftədə beş saat nəzərdə tutulmuşdur.*

*Dərslikdə şagird üçün nəzərdə tutulan və xüsusi təhsilin təlim nəticələrini reallaşdıran tədris materialları əks olunur.*

*Metodik vəsaitdə tədris materiallarının icmalı və məzmun xəritəsi verilir. İş dəftərində kitabda verilmiş məzmunun şagirdlər tərəfindən daha dərindən mənimsənilməsi üçün suallar və tapşırıqlar verilir.*

## MÖVZU: Əlifba

**Təlim məqsədləri:**

- Şagirdlərə əlifba haqqında məlumat verilir.
- Şagirdlər Azərbaycan dilinin əlifbası ilə tanış olurlar.
- Şagirdlərin öyrəndikləri "hərf" və "səs" anlayışları möhkəmləndirilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, riyaziyyat | dərslik, marker, hərflərin əks olunduğu şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədən asılmış, üzərində hərflərin əks olunduğu şəkli göstərərək soruşur:

– Şəkildəki hərflərlə başlayan hansı sözləri bilirsiniz?

**Tədqiqat sualı:** Kim şəkildəki hərflərlə başlayan sözlər deyə bilər?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra qeyd edir ki, Azərbaycan dilində “ı” və “ğ” hərfləri ilə başlayan söz yoxdur. Daha sonra uşaqların diqqətini kitaba yönəldir, hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

1. Əlifba nədir? (*Hərflərin müəyyən qayda ilə düzülüşü əlifba adlanır.*)
2. Azərbaycan əlifbasında neçə hərf var? (*Otuz iki hərf var.*)
3. Azərbaycan əlifbasında neçə səs var? (*Otuz dörd səs var.*)

**Tətbiqetmə.** *Tapşırıq N 2, 4, 5 ( səh. 33)*

*Müəllim səhifə 33-də olan 5-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Əlifba

**Təlim məqsədləri:**

- Şagirdlərdə Azərbaycan əlifbası ilə bağlı biliklər möhkəmləndirilir.
- Oxumaq və yazmaq üçün əlifbanın rolu haqqında uşaqlara məlumat verilir.
- Bilik öyrənməyin əsas yolunun kitab olduğu uşaqlara aşılanır.
- Şagirdlərin əzbərləmə qabiliyyətləri inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, əlifba |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara kitabdakı şəkilləri göstərib soruşur:

– Şəkildə gördükləriniz haqqında nə danışa bilərsiniz?

**Tədqiqat sualı:** Əlifba haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması.**Müəllim şagirdlərin diqqətini “Əlifba” şeirinə yönəldir. Hər şagirdə fərdi yanaşaraq, mətni oxutdurur, sonra isə şəklə əsasən suallar verir:

**1.** Şeir necə adlanır? (*əlifba*)

**2.** Şeirdə nədən bəhs olunur? (*əlifbanı bilməyin faydaları*)

**3.** Kitablardan nə öyrənirik? (*biliklər*)

**Tətbiqetmə.** *Tapşırıq N 2, 3 (səh. 34); 4, 5, 6 (səh. 35)*

Müəllim səhifə 34-də olan 3-cü, səh 35-də olan 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Şəkilli kitab

**Təlim məqsədləri:**

- Şagirdlərə kitablara maraq hissi aşılanır.
- Uşaqlarda oxuya maraq aşılanır.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, müxtəlif nağıllara aid şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə lövhədən asılmış hər biri fərqli nağılların mövzusunu əhatə edən şəkilləri göstərib soruşur:

– Hansı şəkil hansı nağıldan götürülüb?

**Tədqiqat sualı:** Siz hansı kitabları çox sevirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Şəkilli kitab " mətninə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, sonra isə şəklə əsasən suallar verir:

**1.** Ramil anasından nə istədi?(*Kitab istədi.*)

**2.** Ona kitabı kim aldı? (*anası*)

**3.** Ramil nə üçün sevindi? (*Anası ona şəkilli kitab aldı.*)

**4.** O, anasına nə dedi? (*Ana, çox sağ ol!* )

**Tətbiqetmə**. *Tapşırıq N 2, 3, 4 ( səh. 37)*

Müəllim səhifə 37-də olan 2-ci, 4-cü və 5-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Bulaq

**Təlim məqsədləri:**

- Şagirdlərə dostluğun nə demək olduğu izah olunur.
- Uşaqlara bulaq və onun yaranması  haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, bulaq şəkli |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhədən asılmış, üzərində bulaqdan su daşıyan qızların təsvir olunduğu şəkli göstərib sual verir:

– Uşaqlar,  şəkildə qızlar nə edirlər?

**Tədqiqat sualı:** Bəs siz bulaq görmüsünüz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təsvir barəsində məlumat verir. Daha sonra hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

- Uşaqlar hara getmişdilər? ( *meşəyə*)
- Ləman nə istədi? (*Su istədi.*)
- Kamil yaxınlıqda nə tapdı?(*Bulaq tapdı.*)

**Tətbiqetmə.** Tapşırıq N 3, 4, 5 (*səh. 39*)

Müəllim səhifə 39-da olan 4-cü və 5-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Göy qurşağı

**Təlim məqsədləri:**

- Şagirdlərə göy qurşağı haqqında məlumat verilir.
- Şagirdlərə göy qurşağının əmələ gəlməsi haqqında məlumat verilir.
- Şagirdlər göy qurşağı və onun elementləri haqqında biliklərə yiyələnirlər.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, təbiət mənzərəsi şəkli |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, təbiət mənzərəsi əks olunan şəkli göstərib sual verir:

– Şəkildə nələr təsvir olunub? (*ağaclar, çay, yaşıllıq, göy qurşağı*)

**Tədqiqat sualı:** Göy qurşağında hansı rənglər olur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş təbiət hadisəsi barəsində məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Nərgiz atası ilə hara getmişdi? (*göl kənarına*)

**2.** O, atasından nə soruşdu? (*Ata, o nədir?*)

**3.** Göy qurşağı nədir? (Yağışdan sonra *günəşin şüası su damcılarının içindən keçdikdə bu rənglər yaranır. Ona göy qurşağı deyirlər.*)

“Göy qurşağı“ mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

**Tətbiqetmə**. Tapşırıq N 2 ( səh. 40)  N 3, 4 ,5 ( səh. 41)

Müəllim səhifə 41-də olan 4-cü və 6-cı tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Vətən torpağı

**Təlim məqsədləri:**

- Şagirdlərə vətənə sevgi hissi aşılanır.
- Şagirdlərə ölkəmiz haqqında məlumat verilir.
- Şagirdlərə ölkəmizin tarixi abidələri haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.
- Şagirdlərə hərflərin növləri haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, ölkəmizin tarixi və müasir binalarının təsvir olunduğu şəkilləri göstərir və deyir:

– Şəkildə nələri görürsünüz?

**Tədqiqat sualı:** Siz hansı tarixi abidələri görmüsünüz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təsvir barəsində məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar

verir:

**1.** Bizim vətənimiz hansı ölkədir? (*Azərbaycan*)

**2.** Vətən torpağı nə üçün əzizdir?

**3.** Hansı tarixi abidələri tanıyırsınız?

**Tətbiqetmə**. Tapşırıq N 2 ( səh. 42); N 3, 5, 6 (səh. 43)

Müəllim səhifə 43-də olan 6-cı tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qrammatik materialının izahı**:

**Müəllim** lövhədən əlifba şəklini asır və burada sait səslər qırmızı, samit səslər mavi çərçivənin içində verilmişdir. Müəllim uşaqlardan hərflərin bəzilərinin niyə fərqli çərçivədə qeyd olunduğunu soruşur. Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Hərflər 2 yerə bölünür: saitlər və samitlər.

Dərsliyin 43-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Təmizlik

**Təlim məqsədləri:**

- Uşaqlarda sağlamlığın mahiyyətinə dair mövcud biliklər möhkəmləndirilir.
- Təmizkarlığın əhəmiyyəti barədə biliklər təkrarlanır.
- Uşaqlarda şəxsi gigiyena qaydaları möhkəmləndirilir.
- Uşaqlara qidalanma zamanı riayət edilməli olan qaydalar haqqında məlumat verilir.
- Uşaqların oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, gigiyena qaydalarını əks etdirən şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində şəxsi gigiyena qaydalarına aid müxtəlif şəkilləri göstərib soruşur:

– Şəkildə nələri görürsünüz?

**Tədqiqat sualı:** Gigiyen qaydalarına əməl etmək nə üçün lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təsvir barəsində məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Sağlam olmaq üçün nə etmək lazımdır? (*idman etmək, düzgün qidalanmaq və s.*)

**2.** Dişlərinizi gündə neçə dəfə fırçalayırsınız?

**3.** Yeməkdən əvvəl nə edirsiniz?(*Əllərimizi yuyuruq.*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 46); N 4, 5 (səh. 47)

Müəllim səhifə 47-də olan 3-cü və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Payız

**Təlim məqsədləri:**

- Fəsillər haqqında biliklər möhkəmləndirilir.
- Uşaqlara payız fəsli və payızda baş verən təbiət hadisələri haqqında məlumat verilir.
- Şagirdlər "xəzəl" anlayışı ilə tanış olurlar.
- Şagirdlərə sait səslər və onların yaranması haqqında məlumat verilir.
- Uşaqların oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, fəsilləri əks etdirən şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində hər bir fəslin əks olunduğu şəkli göstərərək soruşur:

– Hansı şəkildə hansı fəsil təsvir olunub?

**Tədqiqat sualı:** Nə üçün payız fəsli sevilir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təbiət hadisəsi barəsində, fəsillərin özünəməxsus xüsusiyyətləri haqqında məlumat verir. Daha sonra hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** İlin neçə fəsli var? (4)

**2.** Payız fəslində hava necə olur?
(*Soyuq olur.*)

**3.** Payızda yarpaqların rəngi necə olur?
(*sarı*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 48), N 4,5 (səh. 49)

Müəllim səhifə 49-da olan 5-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qramatik materialın izahı**:
**Müəllim:** – Hansı sait səsləri tanıyırsınız?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Sait səslər ağız boşluğundan sərbəst çıxır, heç bir maneəyə rast gəlmir.

Tələffüz zamanı dil, dodaq və dişlər iştirak edir və bunlar tələffüzə maneə yaratmır.

Dərsliyin 49-cu səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Payız

**Təlim məqsədləri:**

- Fəsillər haqqında biliklər möhkəmləndirilir.

- Şagirdlərə payız fəsli və payızda baş verən təbiət hadisələri haqqında məlumat verilir.
- Şagirdlərə köçəri quşlar haqqında məlumat verilir.
- Şagirdlərlə “maneə “ sözünün izahı verilir.
- Şagirdlərin əzbərləmə bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə samit səslər və onların yaranması haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, fəsilləri əks etdirən şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində payız fəsli təsvir olunmuş şəkli göstərib soruşur:

– Uşaqlar, şəkildə hansı fəsil təsvir olunub?

**Tədqiqat sualı:** Payızda hava necə olur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Payız" mövzusuna yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Payız fəslində hava necə olur? (*Erkən qaralır, soyuq olur.*)

2. Payızda təbiət hansı rəngə boyanır? (*sarı, qızılı*)

3. Bu fəsildə quşlar niyə isti ölkələrə köç edir?(*hava soyuduğu üçün*)

**Qrammatik materialın izahı**:
**Müəllim**: – Hansı samit səsləri tanıyırsınız?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Samit səslər ağız boşluğundan çıxan zaman maneəyə rast gəlir.

– Samit səslərin tələffüzü zamanı dil, dodaqlar və dişlər iştirak edir və bunlar tələffüz zamanı maneə yaradır.

Dərsliyin 51-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 50); N 4, 5, 6 (səh. 51)

Müəllim səhifə 51-də olan 4-cü və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Fənər

**Təlim məqsədləri:**

- Şagirdlərə sərçə haqqında məlumat verilir.
- Şagirdlərə fənər haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, sərçə və fənər şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış sərçə şəklini göstərərək soruşur:

– Şəkildəki hansı quşdur?

**Tədqiqat sualı:** Axşamlar yolları nələr işıqlandırır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş sərçə və fənər haqqında uşaqlara məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca şəklə əsasən suallar verir:

**1.** Sərçələr harada idi? (*öz yuvasında*)

**2.** Bala sərçə anasına nə dedi? (*Ana, bax günəş çıxdı.*)

**3.** Küçəni işıqlandıran nə idi? (*fənər*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 52); N 3, 4 (səh. 53)

Müəllim səhifə 53-də olan 5-ci və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Quşları incitməyin!

**Təlim məqsədləri:**

- Şagirdlərə heyvanlarla düzgün davranış qaydaları izah olunur.
- Uşaqlara düzgün rəftar forması  yanlış rəftar forması ilə müqayisəli şəkildə öyrədilir.
- Şagirdlərdə heyvanlara sevgi hissi tərbiyə olunur.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, quş şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara sual verir:

– Uşaqlar , sizin ən çox sevdiyiniz quş hansıdır?

**Tədqiqat sualı:** Hansı quş növlərini tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Quşları incitməyin" mövzusuna yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, sonra şəklə əsasən suallar verir:

**1.** Hansı fəsil idi? (*qış*)

**2.** Fatimə qardaşına nə dedi? (*Çöldə hava soyuqdur.  Gəl atamızın quşlar üçün*

*aldığı yuvanı qurub həyətdəki ağacdan asaq ki, quş yuvada isinsin*)

**3.** Uşaqlar nə etdilər? (*Quş yuvasını həyətdəki ağacdan asdılar.*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 54); N 3, 4, 5 (səh. 55)

Müəllim səhifə 55-də olan 4-cü və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Həkim məsləhəti

**Təlim məqsədləri:**

- Uşaqlara sağlamlığı qorumağın yolları haqqında məlumat verilir.
- Şagirdlərə sağlamlığı qorumağın hər kəsin öz əlində olması fikri izah edilir.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, həkim və xəstə uşaq şəkli |

**Motivasiya.** Müəllim üzərində həkim şəkli olan kartı lövhədən asır və şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz kimdir?

**Tədqiqat sualı:** Həkim bizə nə zaman kömək edir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Həkim məsləhəti“ mövzusuna yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, sonra şəklə əsasən suallar verir:

**1.** Kim xəstələnmişdi? (*Tural*)

**2.** Həkimi kim çağırdı? (*Turalın anası*)

**3.** Həkim Turala hansı məsləhətləri verdi? (*Hər gün səhər tezdən qalx. İdman et, təmiz havada ol. Vaxtında ye, vaxtında yat. Tez-tez otağının havasını dəyiş. Sağlamlığına diqqət et!* )

**Tətbiqetmə**. Tapşırıq N 1, 2 (səh. 56); N 3, 4, 5, 6 (səh. 57)

Müəllim səhifə 57-də olan 5-ci, 6-cı və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Təhlükəsizlik

**Təlim məqsədləri:**

- Təhlükəsizlik qaydaları haqqında məlumat verilir.
- Uşaqlara oyun üçün yerin düzgün seçilməsinin mahiyyəti izah olunur.
- Şagirdlərə yol kənarının törədə biləcəyi təhlükələr haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, oyun meydançası və yol kənarı şəkilləri, top şəkli |

**Motivasiya.** Müəllim üzərində oyun meydançası və yol kənarı şəkilləri olan kartı lövhədən asır və şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə nələri görürsünüz?

**Tədqiqat sualı:** Siz hansı oyunları oynamağı sevirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təsvir barəsində məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca şəklə əsasən suallar verir:

**1.** Zəhra və Tahir harada oynayırdılar? ( *yol kənarında*)

**2.** Top diyirlənib hara düşdü? (*yola*)

**3.** Piri baba nə dedi? (*Uşaqlar, topla yolun kənarında oynamayın. Bu, çox təhlükəlidir.*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 58); N 4, 5, 6 (səh. 59)

Müəllim səhifə 59-da olan 3 və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Külək

**Təlim məqsədləri:**

- Şagirdlərə külək haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə hecanın yaranma qaydası haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, təbiət hadisələrinin əks olunduğu şəkil |

**Motivasiya.** Müəllim üzərində müxtəlif təbiət hadisələrinin əks olunduğu şəkli lövhədən asır və sual verir:

– Uşaqlar, şəkildəki hansı təbiət hadisələrini tanıyırsınız?

**Tədqiqat sualı:** Havanın küləkli olduğu nədən bilinir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini lövhədən asılan şəklə yönəldir. Şəkildə əks olunmuş hər bir təsvir

**Qrammatik materialın izahı**:

**Müəllim** lövhəni xətt çəkərək 2 yerə bölür və hər tərəfdə müəyyən hərflər yazır. Daha sonra uşaqlardan sıra ilə bu hərfləri birləşdirmələrini xahiş edir.

Müəllim şagirdlərə aşağıdakı məlumatı verə bilər:

– Hərflər bir-biri ilə birləşib heca əmələ gətirir.

Dərsliyin 61-ci səhifəsindəki 3-cü və 5-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

barəsində məlumat verir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca şəklə əsasən suallar verir:

**1.** Kənan həyətdə nə gördü? (*ağacların tərpəndiyini*)

**2.** O, anasından nə soruşdu? (*Ağaclar niyə tərpənir?*)

**3.** Ana nə dedi? (*Çünki bayırda bərk külək əsir.*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 60); N 4, 6, 7 (səh. 61)

Müəllim səhifə 61-də olan 6-cı və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Ən böyük arzu

**Təlim məqsədi:**

- Uşaqlarda oxuya maraq aşılanır.
- Uşaqlarda dərsdən kənar məşğuliyyət sahəsinə maraq oyadılır.
- Oxu bacarıqları inkişaf etdirilir.
- Uşaqlar sözləri hecalara ayırır, hecalardan sözlər düzəldirlər.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün üzərində müxtəlif məşğuliyyət sahələri ilə məşğul olan insan şəkilləri olan kartları göstərib soruşur:

– Uşaqlar, şəkildə insanlar nə edirlər?

**Tədqiqat sualı:** Arzuya çatmaq üçün nə etmək lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Ən böyük arzu" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, mətnə əsasən suallar verir:

**1.** Lalə neçənci sinifdə oxuyur? (*3-cü sinifdə*)

**2.** Onun ən böyük arzusu nə idi?
(*musiqiçi olmaq*)

**3.** Lalə hansı musiqi alətində çalırdı? (*piano*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 ( səh. 62); N 6, 8 (səh. 63)

Müəllim səhifə 62-də olan 3-cü və səhifə 63-də olan 8-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qramatik materialın izahı:**
**Müəllim** lövhəyə müəyyən sözlər yazır: *alma, kitab lalə, qələm, yazı* və s. Daha sonra həmin sözləri qarşısından hecalara bölərək yazır və bu zaman uşaqlardan kömək istəyir.

Beləliklə, uşaqlar sözləri hecalara ayırmağa çalışırlar.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Sözün asanlıqla bölünən hissələrinə heca deyilir

Dərsliyin 63-cü səhifəsindəki 4-cü, 5-ci və 7-ci tapşırıqları yerinə yetirilir. Bu tapşırıqların yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Qışda

**Təlim məqsədləri:**

- Fəsillər haqqında biliklər möhkəmləndirilir.
- Uşaqlara qış fəsli və bu fəsildə baş verən hadisələr haqqında məlumat verilir.
- Şagirdlərə qış yuxusuna gedən heyvanlar haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə sözdə hecanın sayını müəyyən etmək yolları haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, qış fəsli və çöldə oynayan uşaqların şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində qış fəslində həyətdə oynayan uşaqların təsvir olunduğu şəkli göstərib soruşur:

– Uşaqlar, şəkildə hansı fəsil təsvir olunub?

**Tədqiqat sualı:** Siz qış fəslində nə etməyi sevirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Qışda" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** İlin fəsilləri hansılardır? (*yaz, yay, payız, qış*)

**2.** Qış fəslində hava necə olur? (*soyuq*)

**3.** Uşaqlar qış fəslini nə üçün sevirlər? (*Qar topu oynayır, qardan adam düzəldirlər.*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə m, k, t hərflərini yazır və uşaqlara bu hərflərdən istifadə edərək söz düzəltmələrini təklif edir.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Uşaqlar, hecalar və sözlər sait səslərin köməyi ilə yaranır. Eyni zamanda, sözdəki hecaların sayı saitlərin sayı ilə müəyyən edilir.

Dərsliyin 67-ci səhifəsindəki 5-ci və 6-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 66); N 3, 4, 7 (səh. 67)

Müəllim səhifə 67-də olan 4-cü və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Qışda

**Təlim məqsədləri:**

- Fəsillər haqqında biliklər möhkəmləndirilir.
- Uşaqlara qış fəsli və qışda baş verən hadisələr haqqında məlumat verilir.
- Şagirdlərə qış fəslində ətraf aləm təsvir edilir.

• Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində Şaxta baba, yolka ağacı təsvir olunan şəkli göstərib soruşur:

– Uşaqlar, şəkildə nələri görürsünüz?

**Tədqiqat sualı:** Nəyə görə uşaqlar qış fəslini sevir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini " Qışda" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Şeirdə hansı fəsildən bəhs olunur? (*qış fəslindən*)

**2.** Uşaqlar nə üçün sevinirlər? (*qar yağdığı üçün*)

**3.** Qışda hansı bayramı qeyd edirik? (*Yeni il*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 66); N 3, 4, 7 (səh. 67)

Müəllim səhifə 67-də olan 4-cü və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Çoban

**Təlim məqsədləri:**

• Şagirdlərə çoban peşəsi haqqında məlumat verilir.

• Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

• Şagirdlərə söz və hecanın necə yarandığı haqqında məlumat verilir .

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, çoban, qoyun və təbiət şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində qoyun və çoban təsvir olunan şəkli göstərib soruşur:

– Uşaqlar, şəkildə nə görürsünüz?

**Tədqiqat sualı:** Hansı ev heyvanlarını faydalı sayırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Çoban ” mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Çobanlar sürünü hara aparırlar? (*yaylağa*)

**2.** Kim tütək çalırdı? (*Tələt dayı*)

**3.** Tütəyin səsi hara yayıldı? (*dərələrə, düzlərə*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 70); N 4,6 (səh. 71)

Müəllim səhifə 71-də olan 4-cü və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qrammatik materialın izahı**: **Müəllim** lövhəyə b,a,b,a hərflərini yazır və uşaqlara hərfləri iki-iki, bir sait və bir samitdən ibarət olaraq formada qruplaşdırmağı təklif edir. Uşaqlar 2 dənə ba hecası əldə edirlər. Daha sonra müəllim uşaqlardan hər iki hecanı birləşdirib, alınan sözü oxumalarını xahiş edir.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

–Səslərin köməyi ilə hecalar, hecaların köməyi ilə sözlər yaranır.

Dərsliyin 71-ci səhifəsindəki 3-cü və 5-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Çayçı

**Təlim məqsədləri:**

- Uşaqlara çay bitkisinin yetişdirilmə prosesi haqqında məlumat verilir.
- Uşaqlara "çayçı" anlayışı haqqında məlumat verilir.

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, stəkanda çay və çay plantasiyası şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, bir stəkan çayın olan təsvir olunduğu göstərib soruşur:

– Uşaqlar, şəkildə nə görürsünüz?

**Tədqiqat sualı:** İnsanlar nə üçün çay içir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Çayçı" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Lalənin xalası harada işləyirdi? (*çay plantasiyasında*)

**2.** Çayçı qızlar nə yığırdılar? (*yaşıl çay yarpağı*)

**3.** Çayçı qızlar çayı nəyə yığırdılar? (*səbətə*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 72); N 4, 5, 6 (səh. 73)

Müəllim səhifə 73-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Tala

**Təlim məqsədləri:**

- Şagirdlərə "tala" anlayışı haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, odun, meşə və tala şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış odun şəklini göstərib soruşur:

– Uşaqlar, şəkildə nə görürsünüz?

**Tədqiqat sualı:** Odun ən çox harada olur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Tala" mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca şəklə əsasən suallar verir:

**1.** Uşaqlar hara getdilər? (*meşəyə*)

**2.** Dostlar meşədən nə yığırdılar? (*odun*)

**3.** Ləman və Kamil harada oturub dincəldilər? (*talada*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 74); N 3, 5, 6 (səh. 75)

Müəllim səhifə 75-də olan 4-cü və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Arıçı

**Təlim məqsədləri:**

- Şagirdlərə arı haqqında məlumat verilir.
- Şagirdlərə arıların saxlanma qaydaları haqqında məlumat verilir.
- Şagirdlərə arıçı peşəsi haqqında məlumat verilir.
- Şagirdlərə bal haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, arı və arıçı şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün üzərində arı şəkli olan kartı göstərib soruşur:

– Uşaqlar, şəkildəki hansı həşəratdır?

**Tədqiqat sualı:** Sizcə, arı nə hazırlayır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Arıçı” mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Kim arı saxlayırdı? (*Könülün babası*)

**2.** Arılar harada saxlanılır? ("Pətək" adlanan *xüsusi yeşiklərdə*)

**3.** Arılar nə üçün bol məhsul verirdi? (*yaxşı qulluq olunduğu üçün*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 76); N 3, 4, 6 (səh. 77)

Müəllim səhifə 77-də olan 5-ci və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Hərfli köynək

**Təlim məqsədləri:**

- Uşaqlara dostluq hissi aşılanır.
- Uşaqlarda oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən

asılmış, üzərində geyimlər təsvir olunan şəkli göstərir və soruşur:

– Kim deyər, şəkildə nə təsvir olunub?

Müəllim dərslikdəki "Hərfli köynək" mövzusunda olan şəkli şagirdlərə göstərərək, mövzu haqqında onlara məlumat verir.

**Tədqiqat sualı:** Şəkildə nə təsvir olunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Hərfli köynək mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Kimin ad günü idi? (*Turalın*)

**2.** Dostu Turala nə hədiyyə etdi? (*köynək*)

**3.** Tural hədiyyəni nə üçün bəyəndi? (*Köynəyin üzərində rəngli hərflər var idi.*)

**4.** Köynəyin üstündə hansı hərflər var idi? (*a,ı,o,u,e,ə,i,ö,ü*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 80); N 3, 4, 5, 6 (səh. 81)

Müəllim səhifə 81-də olan 6-cı və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Kəpənək

**Təlim məqsədləri:**

- Şagirdlərə kəpənək haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, kəpənək şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara kəpənək şəkli olan kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (*kəpənək*)

**Tədqiqat sualı:** Sizcə, kəpənəklər necə olur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Kəpənək ” mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Sərçə kəpənəyi harada gördü? (*bağçada*)

**2.** Kəpənək hansı çiçəyin üzərinə qondu? (*sarı*)

**3.** Sərçə nə üçün kəpənəyi tapa bilmədi? (*kəpənək özü rəngdə çiçəyin üstünə qonduğu üçün*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 82); N 3, 4, 5 (səh. 83)

Müəllim səhifə 83-də olan 6-cı və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Pambıq

*Çiyid – pambıq toxumudur.*
*Lif – pambığın incə saçaqlarıdır.*

**Təlim məqsədləri:**

- Şagirdlərə pambıq bitkisi haqqında məlumat verilir.
- Şagirdlərə pambıq sahələri haqqında məlumat verilir.
- Şagirdlərə *çiyid* və *lif* anlayışları haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi, riyaziyyat | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim üzərində pambıq şəkli olan kartı lövhədən asır və şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə sual verir

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (*pambıq*)

**Tədqiqat sualı:** Pambıqdan necə istifadə edirlər?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Pambıq" mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Tutu yolun kənarında nə gördü? (*pambıq sahələrini*)

**2.** Pambıqdan necə istifadə edirlər? (*Tibbdə və yüngül sənayedə geniş istifadə olunur.*)

**Tətbiqetmə**. Tapşırıq N 2 (səh. 84);
N 4, 5, 6 (səh. 85)

Müəllim səhifə 85-də olan 6-cı tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qramatik materialın izahı**:
**Müəllim** lövhəni dəftər xanası kimi xətləyir. Uşaqlardan "Pambıq" mətninin ilk cümləsini lövhəyə yazmaq üçün kömək istəyir. Uşaqlar cümləni oxuyurlar, müəllim isə yazır. Müəllim sətrin sonuna çatdıqda sözün yazılışı sətirə tam yerləşmədiyi halda nə etmək lazım olduğunu uşaqlardan soruşur. Müəllim uşaqlara sözü hecalara ayırmağı təklif edir və uşaqlar sözü hecalara ayırırlar. Müəllim ilk hecanı sətrin sonunda, digərini isə növbəti sətirdən yazır.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər: Hər hansı bir sözü sətirdə tam yazmaq mümkün olmadıqda sözü hecalara ayırırıq və sətirdən sətrə keçiririk.

Dərsliyin 85-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Qatar

**Təlim məqsədləri:**

- Şagirdlərə nəqliyyat növləri haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, nəqliyyat vasitələrinin şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara qatar şəkli olan kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə nə təsvir olunub? (*qatar*)

**Tədqiqat sualı:** Nəqliyyat vasitələri nəyə xidmət edir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Qatar" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Hansı nəqliyyat növlərini tanıyırsınız?

**2.** Qatar hansı nəqliyyat növünə aiddir? (*dəmiryolu*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 86); N 4, 5, 6 (səh. 87)

Müəllim səhifə 87-də olan 7-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Dovşan

**Təlim məqsədləri:**

- Şagirdlərə yovşan bitkisi haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində dovşan şəkli olan kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz hansı heyvandır? (*dovşan*)

**Tədqiqat sualı:** Siz dovşan görmüsünüz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Dovşan " mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Dovşan qaçıb hara girdi? (*yovşanlığa*)

**2.** Yovşan nədir? (*çöl bitkisi*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 88); N 5, 6, 7 (səh. 89)

Müəllim səhifə 89-da olan 8-ci və 9-cu tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Meyvələr

**Təlim məqsədləri:**

- Meyvələr haqqında biliklər möhkəmləndirilir.
- Meyvə yeməyin əhəmiyyəti şagirdlərə izah olunur.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş<br>böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, meyvə şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində meyvə şəklilləri olan kartları göstərərək sual verir:

– Uşaqlar, şəkildə hansı meyvələri görürsünüz?

**Tədqiqat sualı:** Meyvə yemək nə üçün xeyirli sayılır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Meyvələr" mətninə yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Çiçək nə xoşlayır? (*meyvə yeməyi*)

**2.** Çiçək nə üçün meyvə yeməyi xoşlayır? (*tərkibində bol vitamin olduğu üçün*)

**3.** O, dostuna meyvələr haqqında nə dedi? (*Meyvələr vitamin mənbəyidir. Bu vitaminlər sağlamlığımız üçün faydalıdır.*)

**Tətbiqetmə**. Tapşırıq N 1, 2, 3 (səh. 90); N 4, 5, 6 (səh. 91)

Müəllim səhifə 91-də olan 7-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: İdmançı

**Təlim məqsədləri:**

- İdmanın güləş növü haqqında məlumat verir.
- Uşaqlara vətənpərvərlik hissi aşılayır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara lövhədən asılmış idman edən uşaq şəklini göstərib soruşur?

– Uşaq nə edir?

**Tədqiqat sualı:** Hansı idman növlərini tanıyırsınız?

**Tədqiqatın aparılması.** Mövzuya keçid etməzdən əvvəl müəllim uşaqların diqqətini lövhədəki şəklə yönəldir, onun haqqında məlumat verir, idman etməyin əhəmiyyətindən söz açır. Sonra şagirdlərin diqqətini "İdmançı" mətninə yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Ömər hansı idman növü ilə məşğul idi?

( *güləş*)

**2.** Ömər nə ilə fəxr edirdi? (*qalib gələndə səslənən Azərbaycan himni ilə*)

**3.** Siz hansı idman növü ilə məşğul olursunuz?

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 92);

N 5, 6 ,7 (səh. 93)

*Müəllim səhifə 93-də olan 6 və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qramatik materialın izahı**:
**Müəllim** lövhədə *ana, ata, inək, ipək* sözlərini yazır və bu sözləri uşaqlarla birlikdə hecalara ayırır. Bu sözlərin işləndiyi cümlələri lövhədə yazırlar. Bu zaman "ana" sözünü növbəti sətrə keçirmək lazım gəlir və əksər uşaqlar "a" hecasını yuxarı sətirdə, "na" hecasını aşağı sətirdə yazırlar. Müəllim uşaqlara izah edir ki, bir hərfdən ibarət olan hecanı sətirdən sətrə keçirmək olmaz.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər: Hər hansı sözü bir sətirdə yazmaq mümkün olmadıqda sözü hecalara ayırırıq və bu cür sözü sətirdən sətrə keçiririk. Lakin elə sözlər var ki, həmin sözlərdə hecaların bəzisi 1 hərfdən ibarət olur və belə sözləri sətirdən sətrə keçirmək olmaz. Məsələn: a-na; a-ta

Dərsliyin 93-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Zooparkda

**Təlim məqsədləri:**

- Şagirdlərə zoopark haqqında məlumat verilir.
- Zooparkda davranış qaydaları haqqında uşaqlara məlumat verilir.
- Qoşasaitli sözləri müəyyən edir, onların yazılışı ilə tələffüzü arasındakı fərqi müəyyən edir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, heyvan şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara lövhədən asılmış, üzərində heyvan şəkilləri olan kartı göstərib soruşur:

– Uşaqlar, şəkildəki hansı heyvanlar ev heyvanı, hansılar çöl heyvanlarıdır?

**Tədqiqat sualı:** Sizcə, zoopark nə üçündür?"

**Tədqiqatın aparılması.** Mövzuya keçid etməzdən əvvəl müəllim uşaqların diqqətini lövhədəki şəklə yönəldir, şəkil haqqında məlumat verir. Ev və çöl heyvanlarını fərqləndirdikdən sonra şagirdlərin diqqətini "Zoopark" mətninə yönəldir, daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Leyla atası ilə hara getmişdi? (*zooparka*)

**2.** Leyla meymuna nə vermək istədi? (*banan*)

**3.** Atası Leylaya nə dedi? *(qızım, burada saxlanılan bütün heyvanlara kənardan qida vermək qadağandır)*

**Tətbiqetmə.** Tapşırıq N 1, 2 (səh. 96); N 3, 4, 6 (səh. 97)

Müəllim səhifə 97-də olan 3 və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədən saat, zoopark, radio və piano şəkillərini asır və uşaqlardan şəkillərin adlarını deməyi xahiş edir. Uşaqlar şəkillərin adlarını dedikdən sonra dəftərlərinə yazırlar. Müəllim uşaqlardan soruşur:

– Sözlərin yazılışında saitlərdən necə istifadə olunub?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Dilimizdə elə sözlər var ki, onlarda iki sait yanaşı gəlir. Belə sözlər *qoşasaitli sözlər* adlanır.

Dərsliyin 97-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Qara qızıl

**Təlim məqsədləri:**

- Şagirdlərə neftçi peşəsi haqqında məlumat verilir.
- Şagirdlərə "mədən" anlayışı haqqında məlumat verilir.
- Şagirdlərə "qara qızıl" anlayışı haqqında məlumat verilir.
- Uşaqlara neft, onun təmizlənməsi və neftdən hazırlanan məhsullar haqqında məlumat verilir.

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim lövhədə spirt, benzin, sürtkü yağı və s. şəkilləri asaraq şagirdlərdən soruşur:

– Uşaqlar, sizcə, bu məhsulları nədən hazırlayırlar?

**Tədqiqat sualı:** Nəyi "qara qızıl" adlandırırlar?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Qara qızıl " mövzusuna yönəldir. Daha sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Firəngizin qardaşı hansı peşənin sahibidir? (*neftçi*)

**2.** Neftə nə üçün *qara qızıl* deyirlər? (çünki *ondan ağ neft, benzin, spirt, sürtkü yağı kimi qiymətli məhsullar hazırlayırlar*)

**3.** Neftdən nə hazırlayırlar? (*ondan ağ neft, benzin, spirt, sürtkü yağı*)

**Tətbiqetmə**. *Tapşırıq N 2 (səh. 98); N 3, 4, 5 ( səh. 99)*

*Müəllim səhifə 99-da olan 4-cü və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Qonaqlıq

**Təlim məqsədləri:**

- Heyvanlar haqqında biliklər möhkəmləndirilir.
- "Qonaq" anlayışı haqqında məlumat verilir.
- Şagirdlərin yaddasaxlama qabiliyyəti inkişaf etdirilir.
- Qoşa samitli sözləri, onların yazılışı ilə tələffüzü arasındakı fərqi müəyyən edir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya dair şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara heyvan şəkilləri olan kartları göstərərək sual verir:

– Uşaqlar, şəkildəki hansı heyvanları tanıyırsınız?

**Tədqiqat sualı:** Hansı çöl heyvanlarını tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Qonaqlıq” mövzusuna yönəldir. Sonra hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətndəki şəklə əsasən suallar verir:

**1.** Qonaqlıqda hansı heyvanlar var idi?

*(dovşan, keçi, qaz, dəvə, xoruz)*

**2.** Sazı çalan hansı quş idi? (*xoruz*)

3. Sən qonaq getməyi xoşlayırsan?

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədən səkkiz, ayaqqabı, çaqqal şəkillərini asır və uşaqlardan şəkillərin adlarını deməyi xahiş edir. Uşaqlar şəkilləri adlandırdıqdan sonra dəftərlərinə yazırlar. Müəllim uşaqlardan soruşur:

– Sözlərin yazılışında samitlərdən necə istifadə olunub?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Dilimizdə elə sözlər var ki, onlarda iki eyni samit yanaşı gəlir. Belə *sözlər qoşasamitli* sözlər adlanır.

Dərsliyin 101-ci səhifəsində 5-ci və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 100); N 4, 7, 8 (səh. 101)

Müəllim səhifə 101-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Dəcəl çəpiş

*Gölməçə – kiçik göl və ya balaca su hövzəsidir.*

**Təlim məqsədləri:**

- Şagirdlərə “gölməçə” anlayışı haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində müxtəlif heyvanların və onların balalarının əks olunduğu şəkilləri göstərib deyir:

– Gəlin hər bir heyvanın öz balasını müəyyən edib onları birləşdirək.

**Tədqiqat sualı:** Dəcəl olmaq ziyan, yoxsa xeyir gətirir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mətnə yönəldir, hər bir şagirdə fərdi yanaşaraq onu oxutdurur, ardınca məzmuna uyğun suallar verir:

**1.** Hansı heyvanın balasına çəpiş deyirlər? (*keçinin*)

**2.** Çəpiş hara çıxmışdı? (*buzun üstünə*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 6) , N 3, 6, 7, 8 (səh. 7)

Müəllim səhifə 7-də olan 4-cü və 5-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Tənbəllər

**Təlim məqsədləri:**

- Şagirdlərə tənbəlliyin mənfi cəhətləri haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən üzərində tənbəl, çalışqan və müxtəlif xarakterlərə malik uşaq şəkillərini asır. Uşaqlara şəkillər haqqında məlumat verdikdən sonra deyir:

– Kim şəkillərdəki təsvirlərin hansı xarakterə aid olduğunu deyə bilər?

**Tədqiqat sualı:** Hansı təsvir sizin xarakterinizə daha yaxındır?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra onların diqqətini kitaba yönəldir, hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

**1.** Uşaqlar harada oynayırdılar? (*bağçada*)

**2.** Çiçəklərin yarpaqları nə üçün solmuşdu? (*susuz qaldığı üçün*)

**3.** Onlara nə üçün tənbəl dedilər? (*çiçəklərə su vermədikləri və bəhanə gətirdikləri üçün*)

**4.** Uşaqlar nə üçün utandılar? (*çiçəklərə su vermədikləri üçün*)

**Tətbiqetmə.** *Tapşırıq N 2, 3 (səh. 8), N 4, 7, 8 (səh. 9)*

*Müəllim səhifə 9-da olan 5-ci və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Arılar

**Təlim məqsədləri:**

- Şagirdlərə “pətək” anlayışı haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, arı, pətək, çəmən, çiçək şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədə "a" və "ı" hərflərini yazır və uşaqlardan soruşur:

– Bu iki hərfin köməyi ilə hansı heyvan adlarını düzəldə bilərik?

**Tədqiqat sualı:** Arının insanlara faydası nədədir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin cavablarını dinlədikdən, əlavələrini qeyd etdikdən sonra uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin məzmununa uyğun suallar verir:

**1.** Arı vızıldayıb nə dedi? (*Qalxın ayağa, işə getmək vaxtıdır.*)

**2.** Arı nəyin ətrini duyurdu? (*çiçəklərin*)

**3.** Arılar hansı tərəfə uçdular? (*çəmənə doğru*)

**Qrammatik materialın izahı:** **Müəllim** uşaqları sıra ilə lövhəyə çağırır və hər birindən lövhəyə bir cümlə yazmağını xahiş edir. Daha sonra cümlələri oxuyur və onların növlərini müəyyən etməyə çalışırlar.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Cümlə bitmiş fikir ifadə edir. Böyük hərflə başlayır. Cümlənin növündən asılı olaraq, sonunda müəyyən durğu işarələrindən istifadə olunur.

Müəllim cümlənin hər növünə uyğun nümunə yazır və müvafiq durğu işarələrindən istifadə edir.

Dərsliyin 11-ci səhifəsindəki 4-cü və 5-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 10), N 6, 7 (səh. 11)

Müəllim səhifə 11-də olan 7-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Məktəbə get, dərs oxu

**Təlim məqsədləri:**

- Şagirdlərə məktəbə getmək fikri aşılanır.

- Şagirdlərə elmə, biliklərə malik olmağın əhəmiyyətindən söz açılır.
- Şagirdlərin əzbərləmə qabiliyyətləri  inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, məktəb , müəllim şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədən asılmış, üzərində məktəb binasının əks olunduğu şəkli göstərib soruşur:

– Şəkildə hara təsvir olunub?

– Ora kimlər və nə üçün gedirlər?

**Tədqiqat sualı:** Uşaqlar nə üçün məktəbə gedir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca  məzmuna uyğun suallar verir:

**1.** Məktəbə nə üçün gedirik? (*savad öyrənmək üçün*)

**2.** Məktəbdə dərs deyən şəxs necə adlanır? (*müəllim*)

**3.** Hansı dərsi çox sevirsiniz?

**Tətbiqetmə.** Tapşırıq N 2, 3, 4 (səh. 12), N 5, 7, 8 (səh. 13)

Müəllim səhifə 13-də olan 6-cı və 9-cu tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Saatı oyatma

**Təlim məqsədləri:**

- Şagirdlərə saatın iş mexanizmi haqqında danışılır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

• Şagirdlərə deyilişi ilə yazılışı fərqlənən sözlər haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədən saat, uşaq, dovşan şəkilləri asır və uşaqlardan bu şəkillərdəki əşyaların adlarını dəftərlərində yazmalarını xahiş edir. Daha sonra uşaqlara yazdıqlarını oxutdurur. Onlara tələffüz zamanı yaranan fərqə diqqət yetirmələrini bildirir.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

–Elə sözlər var ki, deyildiyi kimi yazılmır. Buna misal olaraq, lövhədə şəkillərini gördüyümüz sözləri göstərə bilərik. Belə sözlərə yazılışı ilə tələffüzü fərqlənən sözlər deyilir.

Dərsliyin 17-ci səhifəsindəki 4-cü və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Motivasiya.** Müəllim üzərində müxtəlif növ saat şəkilləri əks olunan kartı lövhədən asaraq uşaqlardan soruşur:

– Kim şəkildəki saatların adlarını deyə bilər?

**Tədqiqat sualı:** Siz saatdan istifadə qaydalarını bilirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Xanım xala nə etmək istəyirdi? (*saatı qurmaq*)

**2.** Çimnaz xalasına nə dedi? (*Xala, saata dəymə. Qoy yatsın. Axı o, həmişə işləyir*)

**3.** Xalası Çimnaza nə cavab verdi? (*Qızım, narahat olma. Saata heç nə olmaz. Saatın gözəlliyi elə onun fasiləsiz işləməsindədir.*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 16), N 5, 7 (səh. 17)

Müəllim səhifə 17-də olan 5-ci və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: Analar**

**Təlim məqsədləri:**

- Şagirdlərə ananın övladın həyatında malik olduğu roldan danışılır.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.
- Şagirdlərə sözlərin düzgün yazılışı haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, mətnə aid şəkil nümunələri |

**Motivasiya.** Müəllim uşaqlara lövhədən asdığı ailə ağacının şəklini göstərir və soruşur:

– Uşaqlar, ailə ağacında kimlər təsvir olunub?

**Tədqiqat sualı:** Siz ananızla birgə nə etməyi xoşlayırsınız?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzuya uyğun suallar verir:

**1.** Şeirdə kimdən bəhs olunur? (*analardan*)

**2.** Siz evdə ananıza kömək edirsinizmi?

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 18 , N 6 (səh. 19)

Müəllim səhifə 18-də olan 3-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə *ailə, radio, sait,* sözlərini yazır və uşaqlardan bu sözləri dəftərlərinə köçürmələrini xahiş edir. Daha sonra uşaqları iki-iki olmaqla lövhəyə çağırır. Uşaqlardan biri sözləri oxuyur, digəri isə yoldaşının sözləri necə tələffüz etməsinə diqqət yetirir. Lövhədə tələffüz formasını yazır. Sonra müəllim və uşaqlar diqqəti tələffüz və yazılışdakı fərqlərə yönəldirlər.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Elə sözlər var ki, tələffüz olunduğu kimi yazılmır. Buna misal olaraq lövhədə qeyd etdiyimiz sözləri göstərə bilərik. Belə sözlərin tələffüzü zamanı *y* samiti əlavə edilir.

Dərsliyin 19-cu səhifəsindəki 4-cü və 5-ci tapşırıq lar yerinə yetirilir. Bu tapşırığın yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**MÖVZU: İşıldaböcək**

*İşıldaböcək – gecələr işıq saçan həşarat növüdür.*

**Təlim məqsədləri:**

- Şagirdlərə işıldaböcək haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Sözlərin yazılışı və deyilişi haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim uşaqlara içərisində işıldaböcəyin də şəkli olan kartları göstərir və soruşur:

– Uşaqlar, siz bu həşəratlardan hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Sizcə, məqsədə necə çatmaq olar?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** İşıldaböcək göydə nə gördü? (*ulduzları*)

**2.** O nə etmək istədi? (*Onların yanına qalxmaq istədi.*)

**3.** İşıldaböcək ulduzların yanına qalxa bildi? (*Zirvəyə çatıb dayandı.*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə o hərfini yazır və | xətt çəkir. Daha sonra deyir ki, gəlin o və |düz xətti birləşdirək. Beləliklə, o hərfindən a hərfi düzətmiş oluruq. Bəzi sözlərdə var ki, o hərfi ilə yazılır, a səsi kimi tələffüz olunur.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Bəzi sözlərdə “o” saiti danışıqda “a” kimi tələffüz olunur.

Dərsliyin 21-ci səhifəsindəki 4-cü, 5-ci, 6-cı və 7-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 20)

Müəllim səhifə 20-də olan 2-ci və 3-cü tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Yazı dərsində

**Təlim məqsədləri:**

- Şagirdlərə sözlərin düzgün yazılış forması haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə sözlərin yazılışı haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədən asılmış üzərində dərs cədvəlinin əks olunduğu şəkli göstərib deyir:

– Uşaqlar, şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Siz hansı fənni xoşlayırsınız?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Hansı dərs idi? (*yazı dərsi*)

**2.** Müəllim şagirdlərə nə dedi? (*Lövhədəki cümləni köçürün.*)

**3.** Səidə hansı səhvi etmişdi? ("*Müəllim*" *sözünü "məllim" formasında yazmışdı.*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə *müəllim, müalicə, səadət* sözlərini yazır və yanaşı gələn saitlətin altından xətt çəkir. Uşaqlardan lövhədəki sözləri köçürməyi və qarşısından tələffüz formalarını qeyd etmələrini xahiş edir.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– «Müəllim, səadət, müavin» tipli sözlər yazıldığı kimi oxunur.

Dərsliyin 23-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 ( səh. 22), N 5, 6 (səh. 23)

Müəllim səhifə 22-də olan 2-ci və 3-cü tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Yazda

**Təlim məqsədləri:**

- Şagirdlərə yazın gəlişi haqqında məlumat verilir.
- Şagirdlərə yaz fəslində baş verən hava dəyişkənliyindən söz açılır.
- Şagirdlərə baharın xəbərçisi qaranquş haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə samitlərin deyilişi və yazılışı haqqında məlumat verilir

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim uşaqlara Novruz bayramı, çərşənbələrə aid şəkillər olan kartları göstərir və soruşur:

– Uşaqlar, şəkildə hansı bayramlar təsvir olunub?

**Tədqiqat sualı:** Novruz bayramını nə zaman qeyd edirik?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Yaz fəslində havalar necə olur? (*isti*)

**2.** Yazın gəlişini hansı quş xəbər verir? (*qaranquş*)

**3.** Uşaqlar yazda hansı işləri görürlər? (*Ağac, gül-çiçək əkirlər. Ağaclardan quş yuvaları və dənliklər asırlar.*)

**Qrammatik materialın izahı:** **Müəllim** *kənd, ocaq, uşaq* sözlərini ucadan səsləndirir və uşaqlar bu sözləri dəftərlərinə yazırlar. Daha sonra müəllim uşaqların dəftərinə baxır və aşağıdakı məlumatları verir:

– Sözün sonunda gələn samitlər bəzən deyildiyi kimi yazılmır. Buna misal olaraq *kənd, ocaq* və s. sözləri göstərmək olar.

Dərsliyin 27-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 26), N 5, 6, 7 (səh. 27)

Müəllim səhifə 27-də olan 5-ci, 6-cı və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: Ağacdələn**

**Təlim məqsədləri:**

- Şagirdlərə ağacdələn haqqında məlumat verilir.
- Ağacların növləri haqqında danışılır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Qoşa samitli sözlərin tələffüzü haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim uşaqlara içərisində ağacdələnin də şəkli olan kartları göstərir və soruşur:

– Uşaqlar, siz bu quşlardan hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Sizcə, ağacdələn necə quşdur?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Müəllim şagirdləri hara apardı? (*meşəyə*)

**2.** Müəllim şagirdlərə hansı ağacları göstərdi? (*palıd, şam, cökə*)

**3.** Meşədən hansı səslər gəlirdi? (*tıqqıltı səsləri*)

**4.** Ağacdələnin ikinci adı nədir? (*meşə həkimi*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə *məqsəd, şaftalı, klub, plan* sözlərini yazır və yanaşı gələn samitlərin altından xətt çəkir. Uşaqlardan lövhədəki sözləri köçürməyi və qarşısında tələffüz formalarını qeyd etmələrini xahiş edir.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Sözdə samitlər yanaşı gələndə çox vaxt onların biri fərqli tələffüz olunur. Buna misal olaraq lövhədəki sözləri göstərmək olar.

Dərsliyin 29-cu səhifəsindəki 5-ci və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 ( səh. 28), N 4, 7 (səh. 29)

Müəllim səhifə 28-də olan 3-cü və səhifə 29-da olan 4-cü tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Lalə və Leyla

**Təlim məqsədləri:**

- Şagirdlərə paylaşmağın gözəlliyindən söz açılır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim uşaqlara içərisində lalə çiçəyinin də şəkli olan kartları göstərir və soruşur:

– Uşaqlar, siz bu güllərdən hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Sizcə, adlar necə qoyulur?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca məzmuna uyğun suallar verir:

**1.** Bacılara nə üçün hədiyyə almışdılar? (Onların *ad günləri idi.*)

**2.** Laləyə gülü kim bağışladı? (*babası*)

**3.** Leyla nə istədi? (*leyla gülü*)

**4.** Anası Leylaya nə dedi? (*Hər adamın adı gül adı olmur.*)

**5.** Lalə Leylaya nə dedi? (*Qoy mənim gülüm ikimizin də gülü olsun.*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 ( səh 30), N 4, 5, 8 (səh 31)

Müəllim səhifə 31-də olan 6-cı və 7ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Nə üçün?

**Təlim məqsədləri:**

- Şagirdlərə hovuz ətrafında təhlükəsizlik qaydaları haqqında məlumat verilir .
- Şagirdlərə balıqlar haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində balıq şəkli olan kartı göstərib deyir:

– Uşaqlar, şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Balıqlar harada yaşayır?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeirin müəllifi kimdir? (*Şahin Aslanov*)

**2.** Şeirdə neçə misra var? (*8*)

**3.** Şeirdə neçə bənd var?(*2*)

**4.** Şeirin axırıncı misrasına necə cavab verərdiniz?

**Tətbiqetmə**. Tapşırıq N 2,3 (səh. 32) , N 4, 5, 6 (səh. 33)

Müəllim səhifə 33-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Çörək

**Təlim məqsədləri:**

- Şagirdlərə çörəklə rəftar qaydalarından danışılır.
- Şagirdlərə çörəyin qədrini bilmək fikri aşılanır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Qoşasaitli və qoşasamitli sözləri sətirdən sətrə keçirmə qaydaları haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış üzərində taxıl zəmiləri, taxıl və çörək şəkilləri olan kartları göstərib deyir:

– Uşaqlar, kartlardakı şəkillər arasında nə kimi əlaqə var?

**Tədqiqat sualı:** Çörək ilə necə rəftar etmək lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Elşən pendirlə çörək götürüb hara getdi? (*həyətə*)

**Qrammatik materialın izahı:** **Müəllim** lövhədə *saat, doqquz, dirrik* sözlərini yazır və uşaqlardan bu sözləri hecalara ayırmalarını xahiş edir. Daha sonra lövhənin sonunu dəftər xanası kimi xətləyir. Uşaqlara bu sözləri həmin xəttin içərisində yazmalarını tapşırır.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Qoşa saitli və qoşa samitli sözləri sətirdən sətrə keçirərkən saitlərdən (samitlərdən) birini sətrin sonunda saxlamaq, digərini yeni sətrə keçirmək lazımdır.

Dərsliyin 37-ci səhifəsindəki 6-cı tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**2.** O, çörəyi nə üçün yerə atdı? (*futbol oynamağa çağırdılar*)

**3.** Mehdi dayı ona nə dedi? (*Bu tikədə taxılı əkib yetişdirənlərin, mənim, sənin, atanın, ananın, taxılı yığanların, üyüdənlərin, çörəyi bişirənlərin əməyi var. Çörəyin qədrini bilmək lazımdır.*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 36) , N 4, 5, 7 (səh. 37)

Müəllim səhifə 37-də olan 6-cı tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Mənim gücüm

*Yanğını söndürmə işləri ilə məşğul olan insanlara yanğınsöndürən deyilir*

**Təlim məqsədi:**

- Şagirdlərə yanğınsöndürənlər haqqında məlumat verilir.
- Şagirdlərə xeyirxahlıq hissi aşılanır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim uşaqlara içərisində qaranquş və qarğanın da şəkilləri olan kartları göstərir və soruşur:

– Uşaqlar, siz bu quşlardan hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Qaranquş nəyin xəbərçisidir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir, hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

**1.** Yanğın harada baş vermişdi? (*bir evdə*)

**2.** Qaranquş nə edirdi? (*Su daşıyaraq yanğını söndürməyə kömək edirdi.*)

**3.** Qarğanın qaranquşa verdiyi suala münasibətiniz bildirin.

**Tətbiqetmə**. Tapşırıq N 1, 2 (səh. 38), N 3, 5, 6 (səh. 39)

Müəllim səhifə 39-da olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Tapmacalar

**Təlim məqsədləri:**

- Şagirdlərə tapmacalar haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə söz və onun mənası haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən içərisində pişiyin də təsvir olunduğu 4 heyvan şəkli asır və soruşur:

– Bizdə bir kişi var,

Xor-xor yatışı var. Sizcə bu hansı heyvandır?

**Tədqiqat sualı:** Pişik nə içir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzuya uyğun suallar verir:

**1.** İçində qışdır

Çölündə bahar. (*soyuducu*)

**2.** Günəşlə gülər,

Axsam mürgülər. ( *günəbaxan*)

**Tətbiqetmə**. Tapşırıq N 1, 2 (səh. 40),

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədə *a, n, a,* hərflərini yazır və uşaqlara bu hərflərin köməyi ilə söz düzəltmələrini tapşırır. Müəllim uşaqlardan düzəltdikləri sözün hansı mənanı ifadə etdiyini soruşur.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Səslər birləşib söz yaradır, lakin səslərdən fərqli olaraq, sözün mənası olur.Sözlər əşyanın adını, əlamətini, sayını və ya hərəkətini bildirir.

Dərsliyin 41-ci səhifəsindəki 3-cü, 4-cü və 5-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

N 6, 7, 8 (səh. 41)

Müəllim səhifə 41-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Aprel

**Təlim məqsədləri:**

- Şagirdlərə aprel ayı haqqında məlumat verilir.
- Şagirdlərə aprel ayında havaların necə olacağı haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.
- Şagirdlərə ad bildirən sözlər haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən üzərində təqvimin əks olunduğu şəkli göstərib soruşur:

– Şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Siz hansı fəsli və ayı xoşlayırsınız?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca məzmuna uyğun suallar verir:

**1.** Şeirin adı nədir? (*Aprel*)

**2.** Şeirdə neçə misra var? (*6*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədən *dəftər, pişik* şəkillərini asır və uşaqlardan bu şəkillər haqqında nə bildiklərini soruşur.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Elə sözlərə var ki, canlı və ya cansız varlıqların, həmçinin yer adını bildirir. Məsələn, kitab cansız, müəllim canlı varlığın, Şuşa isə yer adlarıdır. Belə sözlər kim? nə? hara? suallarına cavab verir.

Dərsliyin 43-cü səhifəsindəki 6-cı, 7-ci, 8-ci və 9-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**3.** Aprel ayı hansı fəslin ayıdır? (*yaz*)

**4.** Şeirin müəllifi kimdir? (*Mirmehdi Seyidzadə*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3, 4 (səh. 42), N 10 (səh. 43)

Müəllim səhifə 42-də olan 4-cü, 5-ci və səhifə 43-də olan 10-cu tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Özün həll et

**Təlim məqsədləri:**

- Şagirdlərə dostluğun gözəl bir şey olduğu haqqında məlumat verilir.
- Şagirdlərə yardımsevərliyin əhəmiyyəti haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində birlikdə dərs hazırlayan uşaqların təsvir olunduğu şəkli göstərib soruşur:

– Şəkildə uşaqlar nə edir?

**Tədqiqat sualı:** Başqalarına kömək etməyin faydası nədədir?”

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Nailə nə üçün dərsə getməmişdi? (*Xəstələnmişdi.*)

**2.** O, məsələni nə üçün həll edə bilmədi? (*Həmin dərsdə iştirak etməmişdi.*)

**3.** Nailə nə etdi? (*Fidangilə getdi*)

**4.** Uşaqlardan hansı düzgün hərəkət etdi: Fidan, yoxsa Fuad? (*Fuad*)

**Tətbiqetmə**. Tapşırıq N 2(səh. 46) , N 3, 4, 5, 6 (səh. 47)

Müəllim səhifə 47-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Ağaclar

**Təlim məqsədləri:**

- Şagirdlərdə ağac əkməyə maraq yaradılır.
- Şagirdlərə ağacların əhəmiyyəti haqqında məlumat verilir
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə -lar² çoxluq bildirən şəkilçisi haqqında məlumat verilir

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | kollektiv iş, fərdi iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədən asılmış üzərində ağac əkən, sulayan, təmizləyən uşaqların təsvir olunduğu şəkilləri göstərib deyir:

– Şəkildə uşaqlar nə edirlər?

**Tədqiqat sualı:** Tərəvəzin insana xeyri nədir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq oxutdurur, ardınca məzmuna uyğun suallar verir:

1. Yuxarı sinif şagirdləri nə etmişdilər?
(*Parkda çoxlu ağac əkmişdilər.*)
2. Şəhla müəllimə şagirdlərə nə dedi?
(*Uşaqlar, bu yaşıllığı 10-cu və 11-ci sinif şagirdləri salıblar.*)
3. Siz neçə ağac əkmisiniz?

**Qrammatik materialın izahı: Müəllim** lövhəni 2 yerə bölür. Bir tərəfə kitab, uşaq, qələm şəkli asır, digər tərəfə isə bir neçə kitab, çoxlu uşaq, 5 dənə qələm şəkli asır. Uşaqlara şəkillər arasındakı fərqə nəzər yetirmələrini tapşırır.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Ad bildirən sözlərin sonuna -lar, -lər cəm çəkilçisi artırıldıqda bu həmin varlığın çox olduğunu bildirir. Çoxluq bildirən bu şəkilçi -lar,-lər kimi yazılsa da, bəzi sözlərdə fərqli tələffüz olunur.

Dərsliyin 49-cu səhifəsindəki 4, 5, 6, 7 və 8-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırığın məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** *Tapşırıq N 2, 3, 4 (səh. 48)*

*Müəllim səhifə 48-də olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Gəlin dost olaq

**Təlim məqsədləri:**

- Şagirdlərə dostluğun gözəl bir şey olduğu haqqında məlumat verilir.
- Şagirdlərə tək yaşamağın çətinliyindən söz açılır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə əlamət bildirən sözlər haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək üçün lövhədən asılmış üzərində qurbağa şəkli olan kartı göstərib soruşur:

– Uşaqlar, şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Siz dostlarınızla necə vaxt keçirirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir, hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin məzmuna uyğun suallar verir:

**1.** Nağıl hansı cümlə ilə başlayır? (*küsəyən bir qurbağa var idi*)

**2.** Qurbağa hansı hadisə ilə qarşılaşdı? (*Bir tülkünün ona tərəf gəldiyini gördü.)*

**3.** O nə üçün qurbağalarla dost oldu?

(*tək yaşamaq çox çətin və qorxulu olduğu üçün*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3, 4 (səh 50)

Müəllim səhifə 50-də olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qrammatik materialın izahı:** **Müəllim** lövhədən *alma, yarpaq* şəkillərini asır və uşaqlara müəyyən suallarla müraciət edir:

1. Alma necə olur?
2. Alma hansı rəngdə olur?
3. Yarpaq hansı rəngdə olur?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Ətrafımızdakı canlı və cansız varlıqların hər birinin öz adı olduğu kimi öz əlamətləri də var. Əlamət bildirən sözlər necə?, nə cür?, hansı? suallarına cavab verir.

Dərsliyin 51-ci səhifəsindəki 5, 6, 7 və 8-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Zəhmətin barı

**Təlim məqsədləri:**

- Şagirdlərə insanın öz əməyi və zəhməti ilə gördüyü işin əhəmiyyətindən söz açılır.
- Şagirdlərə müxtəlif peşələr haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən üzərində bal hazırlayan arı, tarlanı şumlayan əkinçi, qida daşıyan qarışqanın təsvir olunduğu şəkilləri asır və uşaqlardan soruşur:

– Şəkillərdə nə təsvir olunub?

**Tədqiqat sualı:** Bağban kimdir və nə iş görür?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeirin müəllifi kimdir? (*Mirmehdi Seyidzadə*)

**2.** Bağban nə iş görür? (*Torpağı şumlayır, ağacları budayır.*)

**3.** Arı nə hazırlayır? (*bal*)

**4.** Əkinçi nə iş görür? ( *Yer şumlayır, tarlanı əkir.*)

**Tətbiqetmə.** Tapşırıq N 1, 2, 3 (səh. 52), N 4, 5, 7, 9, 10 (səh. 53)

Müəllim səhifə 53-də olan 6-cı və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Qazlar

**Təlim məqsədləri:**

- Şagirdlərə ev və çöl quşları haqqında məlumat verilir .
- Şagirdlərə qazlar haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

- Şagirdlərə hərəkət bildirən sözlər haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim içərisində qaz şəkli də olan kartları göstərir və soruşur:

– Şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Siz qaz görmüsünüz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

**1.** Aysu göydə nə gördü? (*uçan qazları*)

**2.** Ona maraqlı olan nə idi? (*Öz qazları da uça bilirmi?*)

**3.** Aysugilin qazları nə üçün uça bilmirdi? (*Ev qazıdır.*)

**Qrammatik materialın izahı**: **Müəllim** lövhədən maşın, qaçan uşaq, təyyarə şəkilləri asır və uşaqlardan bu şəkillər haqqında nə düşündüklərini soruşur.

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Ətrafımızda baş verən hadisələri hərəkət bildirən sözlər vasitəsi ilə ifadə edirik. Hərəkət keçmişdə, indi və gələcəkdə baş verə bilər. Hərəkət bildirən sözlər *nə etdi? nə edir? nə edəcək?* suallarına cavab verir.

Dərsliyin 57-ci səhifəsindəki 5-ci və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların yerinə yetirilməsində məqsəd mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 56), N 4, 7 (səh. 57)

Müəllim səhifə 57-də olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Hamıdan gözəl

**Təlim məqsədləri:**

- Şagirdlərə park və orada davranış qaydaları haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə indiki zaman haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində parkın təsvir olunduğu şəkli göstərib deyir:

– Şəkildə hara təsvir olunub?

**Tədqiqat sualı:** Sizcə, uşaqlar parka getməyi nəyə görə xoşlayır?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Solmaz anası ilə hara getmişdi? (*parka*)

**2.** Solmaz nə üçün anasını itirdi? (*insanlar çox idi*)

**3.** Ona kim kömək etmək istədi? (*qoca kişi*)

**Qrammatik materialın izahı**: **Müəllim** uşaqlara suallar verir:

**1.** Siz indi nə edirsiniz?

**2.** Müəllim nə edir?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Hərəkətin indi, hal-hazırda icra olunduğunu bildirən sözlər *nə edir?* sualına cavab verir.

Dərsliyin 59-cu səhifəsindəki 5, 6, 7, 8 və 9-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** Tapşırıq N 2, 3, 4 (səh. 58)

Müəllim səhifə 58-də olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Böyüklərə hörmət et!

**Təlim məqsədləri:**

- Şagirdlərdə böyüklərə sevgi aşılanır.
- Şagirdlərin yaddasaxlama qabiliyyəti inkişaf etdirilir.
- Şagirdlərə gələcək zaman haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində yaşlıların və uşaqların təsvir olunduğu şəkli göstərib deyir:

– Şəkildə nə təsvir olunub?

**Tədqiqat sualı:** Siz yaşlı insanlara kömək edirsinizmi?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeir neçə bənddir? (*2*)

**2.** Şeirin müəllifi kimdir? (*Mirvarid Dilbazi*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3, 4, 5 (səh. 60), N 6 (səh. 61)

Müəllim səhifə 60-da olan 3-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qrammatik materialın izahı:** **Müəllim** lövhədə müəyyən suallar yazır və uşaqlardan bu suallara cavab vermələrini xahiş edir:
1. Siz yay tətilində hara gedəcəksiniz?
2. Siz evə gedib nə edəcəksiniz?
3. Siz sabah hara gedəcəksiniz?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verə bilər:

– Hərəkətin gələcəkdə baş verəcəyini bildirən sözlər *nə edəcək?* sualına cavab verir.

Dərsliyin 61-ci səhifəsindəki 7, 8, 9 və 10-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

## MÖVZU: Atalar sözləri

*Müdrik – ağıllı, dərc edən deməkdir.*

**Təlim məqsədləri:**
- Şagirdlərə atalar sözləri haqqında məlumat verilir.
- Şagirdlərə *müdrik* anlayışı haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən asılmış, üzərində atalar sözlərini əks etdirən (damcı və aşağısında göl şəkli; metrə və qayçı şəkli və s.) şəkilləri göstərib soruşur:

– Şəkildəkilər hansı mənanı ifadə edir?

**Tədqiqat sualı.** Siz hansı atalar sözlərini bilirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

1. Hansı sözlər atalar sözləri adlanır? (ata-babalarımızın həyat təcrübəsini əks etdirən müdrik sözlər)

2. Vətənlə bağlı atalar sözləri hansılardır? (*Bu dünyada şirin şey, bir anadır, bir Vətən. Vətən elin evi, dayağıdır. Hər kəsə öz vətəni əzizdir. Bülbül gülü sevər, insan-Vətəni.*)

3. Dostla bağlı bir neçə atalar sözü deyin.

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 64), N 4, 6, 7, 8 (səh. 65)

Müəllim səhifə 65-də olan 5-ci və 9-cu tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Papaq

**Təlim məqsədləri:**

- Şagirdlərə qayğıkeş olmaq fikri aşılanır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində papaq təsvir olunmuş şəkili göstərib deyir:

– Uşaqlar, şəkildə nə görürsünüz?

**Tədqiqat sualı:** Heyvanlara qayğı göstərmək nə üçün lazımdır?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Gülnurun anası nə üçün hirsləndi? (*Elə bildi ki, Gülnur papağını itirib.*)

**2.** Gülnur papağını itirmişdi? (*Yox, papağın içində iki pişik balası bir-birinə sıxılıb yatmışdı.*)

**3.** Siz də Gülnur kimi edərdiniz?

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 66), N 3, 4, 7, 8 (səh. 67)

Müəllim səhifə 67-də olan 4-cü, 5-ci və 6-cı tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Bağban babam

**Təlim məqsədləri:**

- Şagirdlərə bağban peşəsi haqqında məlumat verilir.
- Şagirdlərə zəhmət çəkərək əldə edilən şeylərin necə dəyərli olduğu fikri aşılanır.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün lövhədən asılmış, üzərində bağ və bağbanın təsvir olunduğu şəkilləri göstərib deyir:

– Uşaqlar, şəkildə hara və kim təsvir olunub?

**Tədqiqat sualı:** Bağda hansı meyvə ağacları olur?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeirin müəllifi kimdir? (*Məmməd Namaz*)

**2.** Şeir neçə bənddən ibarətdir? (*3*)

**3.** Babanı cavan saxlayan nə idi? (*zəhmət*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3, 4 (səh. 68), N 6, 7, 8 (səh. 69)

Müəllim səhifə 69-da olan 5-ci və 9-cu tapşırıqlar şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Çəyirdək

**Təlim məqsədləri:**

- Şagirdlərə icazəsiz iş görməmək fikri aşılanır.

- Şagirdlərə gavalı meyvəsi haqqında məlumat verilir.
- Şagirdlərə çəyirdəkli meyvələr və onların yeyilmə qaydası haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim şagirdlərə içərisində gavalının da təsvir olunduğu kartları göstərir və soruşur:

– Uşaqlar, siz bu meyvələrdən hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Meyvələrin insana xeyri nədir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

**1.** Ana gavalını uşaqlara nə vaxt vermək istəyirdi? (*nahardan sonra*)

**2.** Gavalını hamıdan tez kim yedi? (*Vüsal*)

**3.** Uşaqların cavabı atanı qane etdimi? (*xeyr*)

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 72), N 3, 4, 5, 6 (səh. 73)

Müəllim səhifə 73-də olan 7-ci və 8-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Lovğa dovşan

*Lovğa – özü haqqında yüksək fikirdə olan adamdır.*

**Təlim məqsədləri:**
- Şagirdlərə lovğalığın yaxşı xüsusiyyət olmadığı fikri aşılanır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərə say bildirən sözlər haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən dovşan, tısbağa şəkillərini asır və uşaqlardan soruşur:

– Şəkillərdə hansı heyvanlar təsvir olunub?

**Tədqiqat sualı:** Sizcə, dovşan sürətlə hərəkət edir, yoxsa tısbağa?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Heyvanlar nə istəyirdilər? (*qaçış yarışı keçirmək*)

**2.** Yarışda birinci kimlər iştirak etdi? (*lovğa dovşan və tısbağa*)

**3.** Dovşan nəyə arxayın idi? (sürətli ayaqlarına)

**Qrammatik materialın izahı:**
**Müəllim** lövhədən 3 alma şəkli asır və uşaqlardan soruşur:

– Şəkildə neçə alma var?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Əşyanın nə qədər olduğunu bildirmək üçün ad bildirən sözdən əvvəl say bildirən söz işlənir. Say bildirən sözlər *neçə?, neçənci?, nə qədər?* suallarına cavab verir.

Dərsliyin 75-ci səhifəsindəki 5-ci və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Tətbiqetmə.** *Tapşırıq N 2, 3 (səh. 74), N 4, 7 (səh. 75)*

*Müəllim səhifə 75-də olan 4-cü tapşırığı şagirdlərin dəftərinə yazdırır.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Bənövşə

**Təlim məqsədləri:**

- Şagirdlərə bənövşə gülü haqqında məlumat verilir.
- Şagirdlərin əzbərləmə qabiliyyətləri inkişaf etdirilir.
- Şagirdlərə say bildirən sözlər haqqında məlumat verilir

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən içərisində bənövşənin də şəkli olan kartları göstərir və soruşur :

– Uşaqlar, siz bu çiçəklərdən hansını tanıyırsınız?

**Tədqiqat sualı:** Uşaqlar daha çox hansı gülləri xoşlayır?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeirin müəllifi kimdir? (*Zahid Xəlil*)

**2.** Şeir neçə misradan ibarətdir? (*8*)

**3.** Bənövşə hansı fəsildə açır? (*yazda*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3, 4 (səh. 76), N 7, 8 (səh. 77)

Müəllim səhifə 76-da olan 4-cü və səhifə 77-də olan 8-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır. Səhifə 77-də olan 8-ci tapşırığın məqsədi rabitəli niqtin inkişafıdır.

**Qrammatik materialın izahı**: **Müəllim** uşaqlardan soruşur:

– Çöldəki ağacda nə qədər yarpaq var?

– Başımızda nə qədər tük var?

– Şəkildə neçə alma var?

Müəllim şagirdlərə aşağıdakı məlumatları verir:

– Elə say bildirən sözlər var ki, sayı dəqiq göstərmir. *Məsələn,* «Həyətə xeyli adam toplaşmışdı».

*Xeyli* sözü insanların çox olduğunu bildirsə də, konkret sayı göstərmir.

Dərsliyin 77-ci səhifəsindəki 5-ci və 6-cı tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların yerinə yetirilməsi məqsədi mövzuya dair biliklərin möhkəmləndirilməsidir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Nəzakətli sözlər

**Təlim məqsədləri:**

- Şagirdlərə nəzakətli sözlər haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən ad gününü qeyd edən uşaqların şəklini asır və soruşur:

– Şəkildə uşaqlar nə edirlər?

**Tədqiqat sualı:** Siz ad günü olan insanları necə təbrik edirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzuya uyğun suallar verir:

**1.** Dərsin adı necədir? (*nəzakətli sözlər*)

**2.** Nəzakət bildirən sözlər nə zaman istifadə olunur? (*ünsiyyət zamanı, görüşərkən,*

*ayrılarkən, müraciət edərkən, təşəkkür edərkən, təbrik edərkən*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 80), N 4, 6, 8 (səh. 81)

Müəllim səhifə 81-də olan 5-ci və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Qohumlar

**Təlim məqsədləri:**

- Şagirdlərə qohumlar haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən qonaqlığın təsvir olunduğu şəkli asır və soruşur:

– Şəkildə kimlər təsvir olunub və onların arasında hansı əlaqə var?

**Tədqiqat sualı:** Siz qohumlarınızı ziyarət edirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Qohumlar kimlərdir? (*nənə, baba, dayı, əmi, xala, bibi*)

**2.** Sən qohumlarını tanıyırsan?

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 82), N 3, 4, 6 (səh. 83)

Müəllim səhifə 83-də olan 5-ci və 7-ci tapşırıqları şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Sevirəm yayı mən!

**Təlim məqsədləri:**

- Yay fəslinə dair biliklər möhkəmləndirilir.
- Şagirdlərə yay fəslində görülə biləcək işlərdən söz açılır.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | nitq inkişafı, həyat bilgisi | dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən asılmış, yay fəslinin təsvir olunduğu şəkli göstərib soruşur:

– Şəkildə hansı fəsil təsvir olunub?

**Tədqiqat sualı:** Uşaqlar yayı nəyə görə sevir?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir, hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

1. Şeirin müəllifi kimdir? (*Həmid Abbaszadə*)
2. Şeirdə neçə misra var? (*13*)
3. Şeirdəki fikirləri öz sözlərinizlə ifadə edin.

**Tətbiqetmə.** Tapşırıq N 2 (səh. 84), N 3, 4, 7, 8, 10 ( səh. 85)

Müəllim səhifə 85-də olan 5, 6 və 9-cu tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Yayda

**Təlim məqsədləri:**

- Yay fəslinə dair biliklər möhkəmləndirilir.
- Şagirdlərə yay fəslində edilə biləcək şeylərdən söz açılır.
- Şagirdlərə yay fəslində insanların vaxtlarını necə keçirdiyi haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| induktiv | fərdi iş, böyük qruplarla iş | diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi | Dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən çimərlik şəklini asır və şagirdlərdən soruşur:

– Şəkildə hara təsvir olunub?

**Tədqiqat sualı:** Siz yay fəslini necə keçirirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini kitaba yönəldir, hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mətnin mövzusuna uyğun suallar verir:

**1.** Yayda hava necə olur? (*isti*)

**2.** Yay fəslinin ayları hansılardır? (*iyun, iyul, avqust*)

**3.** Yayda məktəblilər nə edir? (*düşərgələrdə dincəlir, dənizdə, çayda çimir, gəzintiyə gedirlər*)

**Tətbiqetmə.** Tapşırıq N 2, 3 (səh. 88), N 6,7 (səh. 89)

Müəllim səhifə 89-da olan 4-cü və 5-ci tapşırığı şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Uşaqların bayramı

**Təlim məqsədləri:**

- Şagirdlərə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü haqqında məlumat verilir.
- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi | Dərslik, marker, mövzuya uyğun şəkillər |

**Motivasiya.** Müəllim lövhədən əylənən, bayram qeyd edən uşaqların şəkillərini asır və şagirdlərdən soruşur:

– Şəkildə təsvir olunan uşaqlar nə edirlər?

**Tədqiqat sualı:** Siz ən çox hansı bayramı qeyd etməyi xoşlayırsınız?

**Tədqiqatın aparılması.** Müəllim uşaqların diqqətini mövzuya yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni oxutdurur, ardınca mövzuya uyğun suallar verir:

**1.** Şeir neçə benddən ibarətdir? (*3*)

**2.** Şeirdə neçə misra var? (*12*)

**3.** Şeirin müəllifi kimdir? (*Xanımana Əlibəyli*)

**Tətbiqetmə**. Tapşırıq N 2, 3 (səh. 90) , N 4, 7, 8, 9 (səh. 91)

Müəllim səhifə 91-də olan 5-ci və 6-cı tapşırıq şagirdlərin dəftərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

BURAXILIŞ MƏLUMATI

*Xüsusi məktəblərin*
*3-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin (qrif nömrəsi 2023-016)*
*metodik vəsaiti*

**Tərtibçi heyət**

Müəlliflər
**Farizə Nəbiyeva**
**Aygün Qasımova**
**Yeganə Məmmədəliyeva**
**Həbib Kərimov**
**Süleyman Kərimov**
**Könül Doxolova**

Layihə rəhbəri **Rəhilə Soltanqızı**
Dizayner **Sevil Ağaşova**
Texniki redaktor **Ruslan Mahmudov**
Redaktor **Kəklik Məmmədova**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Kağız formatı 60x90 $^{1}/_{8}$. Həcmi ç.v. 9. Kəsimdən sonra ölçüsü: 195x275.
Şriftin adı və ölçüsü: Cambria 12-14. Ofset çapı. Ofset kağızı.
Sifariş . Səhifə sayı 72. Pulsuz. Bakı – 2023

Çap məhsulunu hazırlayan:
**Çaşıoğlu Eİ MMC** (Bakı ş. M. Müşfiq küç., 2 A)